# "Qəbələ" "Neftçi" üzərində ikinci böyük hesablı qələbəsini qazandı

Oktyabrın 29-da Azərbaycan Premyer Liqasında X tura start verilib.



Turun açılış matçında turnir cədvəlinin ilk pilləsində qərarlaşan "Qəbələ" "Neftçi"-ni qəbul edib. İlk dövrədə rəqibinə səkkiz cavabsız qolla qalib gələn komandamız bu görüşdə də favorit olub. "Qəbələ" bu dəfə paytaxt klubunu 4:1 hesabı ilə məğlub edib. Belə ki, həmyerlilərimiz hesabı erkən açıb. Sergey Zenyov 12-ci dəqiqədə oyunun ilk qolunu vurub: 1:0.

Fasilədən sonra "Neftçi" Araz Abdullayevin 49-cu dəqiqədə vurduğu qolla oyunda hesabı bərabərləşdirib. Lakin "Qəbələ" yenidən hesabı öz xeyirlərinə dəyişməyi bacarıb. Sergey Zenyov 59-cu dəqiqədə dublunu rəsmiləşdirərək ikinci qolu vurmuşdur. Daha sonra Asif Məmmədov (62-ci dəqiqədə) və Rəşad Eyyubov (77-ci dəqiqədə) hərəyə bir qolla fərqlənə biliblər: 4:1. Ümumi hesabla «Qəbələ» «Neftçi» üzərində 4:1 hesabla qələbə qazandı. Beləliklə, xal ehtiyatını 24-ə çatdıran "Qəbələ" liderliyini bir qədər də möhkəmləndirib. Məğlubiyyətdən yaxa qurtara bilməyən "Neftçi" isə 6 xalla yeddinci pillədə qalıb.

*«Qəbələ».*

# Cüdo üzrə yeniyetmələr arasında zona birinciliyi

Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə kiçik yaşlı uşaqlar və yeniyetmələr arasında cüdo idman növü üzrə zona birinciliyi keçirilmişdir. İlin sonunadək regionlarda və paytaxtda keçiriləcək yarışlar



bu idman növünün daha da populyarlaşmasına yönəlib. Cüdo Federasiyasının bölgələrdə inkişafı istiqamətində gördüyü işlər çərçivəsində hakimlər də diqqətdən kənarda qalmayıblar. Bunun üçün zona birinciliyində paytaxt hakimləri ilə yanaşı regiondan olan hakimlər də görüşləri idarə ediblər. Yarış 27-28 oktyabr 2016-cı il tarixdə Qəbələ Olimpiya İdman Kompleksində baş tutmuşdur. Birincilikdə respublikanın Şamaxı, Qobustan, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz rayonlarından 6 komanda üzrə 80-dək idmançı iştirak etmişdir.

Yarışın keçirilməsində əsas məqsəd cüdo idman növünün regionlarda təbliği və inkişafına nail olmaq, regionlardakı idman təşkilatlarında təlim-məşq prosesini təkmilləşdirmək, uşaq və yeniyetmə idmançılarda yarış təcrübəsini və ustalığı inkişaf etdirmək, cüdo üzrə rayon yığma komandasının tərkibini müəyyən etməkdən ibarətdir.

Birinciliyin açılış mərasimində Qəbələ Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov, Azərbaycan Cüdo Federasiyasının rəsmiləri Tərlan Poladov, Tərlan Həsənov çıxış edərək yarışın məqsəd və vəzifələri haqqında məlumat vermiş və idmançılara uğurlar arzulamışlar.

Açılış mərasimindən sonra yarışın ilk günü 2003-2004-cü il təvəllüdlü oğlan və qızlar mübarizə aparmışlar. Yarışın ikinci günü isə 2000-2002-ci il təvəllüdlü cüdoçular güclərini sınamışlar. Yarış mövcud beynəlxalq qaydalara əsasən keçirilmişdir.

Yarışda Qəbələ komandası yüksək nəticə göstərərək birinciliyi əldə etmişdir. Zona birinciliyinin sonunda mükafatlandırma mərasimi keçirilib. Birincilikdə fərqlənən tatami ustaları medal və fəxri fərmanla təltif olunublar. Mübarizələrdə ilk 3 mövqedə yer alan cüdoçular Azərbaycan birinciliyinə vəsiqə qazanmışdır.

**✍ Elçin OSMANOV, rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

**S. Umuyev.**

# Yol qaydaya salındı

Xırxatala və Cığatelli kəndlərini birləşdirən yolun üstündəki Seytasan çayında ilin əksər vaxtlarında su olmur. Ancaq yaz və payız aylarında bəzən günlər və həftələrlə davam edən yağışların suyu sel halında bu iki kəndi birləşdirən yolun Seytasan çayından keçən hissəsini yuyub keçilməz hala gətirir.

Bu yaxınlarda rayon icra hakimiyyətinin tapşırığı ilə 10 saylı Yol İstismarı MMC və Həmzəli Bələdiyyəsi bəhs etdiyimiz yolun Seytasan çayından keçən hissəsinə iri diametrli su ötürücüləri qoymuş, sel sularının bu ötürücülərdən keçməsi üçün çayın məcrasında xeyli iş görmüşlər. Yolun çayın məcrasından keçən 150 metrdən çox hissəsinə çınqıl tökülüb hamarlanmışdır. İndi Xırxatala və Cığatelli kəndlərini birləşdirən yolda avtomobillər və piyadaldar maneəsiz hərəkət edə bilirlər.

*«Qəbələ».*

# Azərbaycanda noyabrda 3 alamətdar, 9 qeyri-iş günü var

Azərbaycanda noyabrın 9-da Dövlət Bayrağı Günü qeyd olunacaq və həmin gün qeyri-iş günü hesab edilir.

Bundan başqa, noyabr ayında 8 gün şənbə-bazara düşdüyündən həmin günlər qeyri-iş günü sayılır.

Qeyd edək ki, noyabrın 12-də Konstitusiya Günü, 17-də isə Dirçəliş Günü qeyd ediləcək. Amma həmin günlər qeyri-iş günü hesab olunmur.

# Oxucuların nəzərinə!

*Əl işdən soyumaz, ürək arzudan...*

**QƏBƏLƏ**

Qəbələ rayonunun ictimai-siyasi qəzeti 1933-cü ildən nəşr olunur

**qəzetinə**

***2017-ci il üçün abunə yazılışı davam edir.***

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşca kənd sakini **Əsədov Nizaməddin Əsədi oğlunun** adına verilmiş JN seriyalı 047 G nömrəli (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1992-ci il tarixdə 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini **Əfəndiyeva Əzizə Mustafa qızının və ailə üzvlərinin** adına verilmiş JN seriyalı 754 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının15 may 1998-ci il tarixli qərarı ilə Courlu kənd sakini **Veysəlov Mehdi Ələfsər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 296 nömrəli (kod 40613028) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin və aparatın əməkdaşları RİH-nin sabiq işçisi **Tahir Hacıyevə**

**FƏRQANƏ HACIYEVANIN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Qəbələ» qəzetinin kollektivi **Tahir Hacıyevə** və **Sahib Hüseynova** əziziləri

**FƏRQANƏ HACIYEVANIN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*Redaktor*
*V. A. Yaqubov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Növbətçi redaktor*
*A. C. Cəlilov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner R. Rəşidov*
Tiraj 1800.
Oxucu məktubları geri qaytarılmır.